www.sinaqimtahani.net
Bu fənndən sınaq imtahanı ver

Sinaq_Firmanın iqtisadiyyatı_Az_Əyani_Kollokvium 1

1 Firmanın maliyyə modelinin diqqət mərkəzində olan budur:
- bazar tələb və təklfi üzərindən qiymət və məhsul buraxılışı həcmləri üzrə qərarların tədqiqi öyrənilməsi
- ayrıca firmanın maliyyə qərarları və davranışlarının sistemli şəkildə öyrənilməsi
- cari xərclərin səviyyəsinin öyrənilməsi
- firmanın malik olduğu fondlardan müxtəlif istiqamətlərə yönəldilən sərmayələrin, habelə fiziki kapitala qoyuluşların tədqiqi
- son hədd səmərəliliyin və faiz dərəcələrinin araşdırılması

2 " Firmanın məqsədi onun fəaliyyətinin xarici mühitin durumundan asılı olaraq dəyişə bilər" – bu fikir firma nəzəriyyələrindən hansına aiddir?
- firmanın şəbəkə konsepsiyasına
- firmanın menecerial (idarəçilik) nəzəriyyəsinə
- firmanın davranış (bixevioristik) nəzəriyyəsinə
- firmanın institutsional nəzəriyyəsinə
- firmanın təkamül nəzəriyyəsinə

3 Firmanın "spesifik aktivlər"i dedikdə nə başa düşülür?
- müqavilə tərədaşları üçün belə resurslaırn dəyəri onların bazar dəyərinindən əhəmiyyətli dərəcədə aşağı olur
- həm bazar, həm də firma daxilində istifadə baxımından dəyəri xüsusi əhəmiyyət kəsb etməyən resurslar
- firmanın daxilində istifadəsi ilə müqayisədə firmanın hüdudlarından kənarda istifadəsi daha yüksək qiymətləndirilən resurslar
- dəyəri həm bazar, həm də firmada istifadə baxımından bərabər qiymətləndirilən resurslar
- firmanın hüdudlarından kənarda istifadəsi ilə müqayisədə firmanın daxilində istifadəsi daha yüksək qiymətləndirilən resurslar

4 Firmanın davranış (bixeviorist) nəzəriyyəsinə əsasən firma:
- ilkin resursların hazır məhsula çevrilməsini təmin edən sistemdir
- dəyər yaradılması prosesinin iştirakçılaır arasındakı müqavilələr toplusudur
- təkamül edən təşkilatdır
- müxtəlif səviyyələrdə baş verən idarəetmə funksiyalarının vahid sistemidir
- müxtəlif maraq qruplarının maraqlarını və cəhdlərini əlaqələndirən (planlaşdıran) sistemdir

5 Firmanın prinsipal-agent modelinə əsasən agentin opportunist davranışları nədən meydana çıxır?
- prinsipalla agent arasında meydana çıxan maraqlar konfliktindən və agentin məsuliyyətsiz davranışlarından
- prinsipal agentin bütün hərəkətlərinə nəzarət etmək qabiliyyətinə və tam informasiyaya malik olmasından
- prinsipal agentin bütün hərəkətlərinə nəzarət etmək qabiliyyətinə və tam informasiyaya malik olmamasından
- prinsipal agentin fəaliyyətini tam təşkil etmək qabiliyyətinə malik olmamasından
- prinsipal agentdən yuxarı səviyyədə olduğundan onun maraqlarının agentin maraqlarından daha geniş olması ilə əlaqədar

6 "Firmanın təbiəti" əsərində R. Kouz aşağıdakı 2 mühüm suala cavab axtarırdı:
- Firmalar nə üçün mövcuddur? Dövlət iqtisadiyyata müdaxilə etməlidirmi?
- Firmalar nə üçün mövcuddur? Niyə bütün istehsal bir böyük firmada həyata keçirilmir?
- Firmalar nə üçün istehsal edirlər? Niyə bütün istehsal bazarda həyata keçirilmir?
- Firmalar nə ilə məşğul olmalıdır? Firmaların ölçüləri necə olmalıdır?
- Firmalar nə üçün rəqabət aparırlar? Niyə bütün istehsal bir böyük firmada həyata keçirilmir?

7 Firmanın təbiəti, yaranması və inkişafı məsələlərinin izahında hazırda iqtisad elmində hansı yanaşma daha üstün mövqeyə malikdir?
- menecerila (idarəçilik) yanaşması
- institutsional yanaşma
- neoklassik yanaşma
- təkamül yanaşması
- davranış (bixeviorist) yanaşması

8 Neoklassik iqtisadi nəzəriyyədə firmanın mahiyyəti hansı konsepsiya və ya model əsasında izah olunur?
- firmanın "qara qutu" modeli
- firmanın davranış (bixeviorist) konsepsiyası
- transaksiya xərcləri konsepsiyası
- iqtisadi resurslaırn dövriyyəsi modeli
- firmanın sahibkarlıq konsepsiyası

9 Rasional davranış hipotezinə əsasən:
- hər kəs mübadilənin daha ədalətli aparılmasına çalışır
- hər kəs xərclərini minimumlaşdırmağa çalışır (ən az xərclə uyğun mənfəət götürməyə çalışır)

- [x] hər kəs faydasını maksimumlaşdırmağa çalışır (az xərclə daha çox fayda göyürməyə çalışır)
- [ ] cəmiyyətdə qarşılıqlı faydalı mübadilə olmalıdır
- [ ] hər kəs xərc çəkmədən fayda götürməyə çalışır

10 Firmanın təşkilat strukturunun holding quruluşuna (H-forma) aid olmayan əlamət hansıdır?
- [x] burada baş şirkətin tərkibində çox sayda mənfəət mərkəzləri olur və bunların hər birinin fəaliyyətinin nəticələri ayrı-ayrılıqda qiymətləndirilir
- [ ] əlində olan nəzarət-səhm zərfi holdinq şirkətinə həlledici səs hüququ verir ki, bu da ona agent firmalar üzrə vahid siyasət yürütməyə imkan verir
- [ ] agentlər, mənfəətin bölünməsi istisna olmaqla, demək olar bütün qərarların qəbulunda sərbəstdirlər
- [ ] holdinqə daxil olan bütün firmalar üzrə konsolidasiya edilmiş maliyyə hesabatı hazırlanır
- [ ] burada baş şirkət digər firmaların fəaliyyətinə və idarə edilməsinə nəzarət etmək üçün onların nəzarət-səhm zərfinə (paya) malik olur

11 Korporativ idarəetmə modelinin formalaşdırılması və inkişaf etdirilməsi zamanı diqqətdə saxlanılan əsas 3 məsələ hansılardır? 1) səhmdarların sayının məhdudlaşdırılması; 2) səhmdarların hüquqlarının müdafiəsi mexanizmi; 3) direktorlar şurasının funksiya və vəzifələri; 4) şirkətin mənfəətinin bölünməsi mexanizmi; 5) informasiyanın açıqlanması səviyyəsi
- [ ] 1), 3) və 5)
- [ ] 1), 2) və 4)
- [ ] 1), 4) və 5)
- [ ] 2), 4) və 5)
- [x] 2), 3) və 5)

12 Açıq tipli səhmdar cəmiyyəti (ASC) və qapalı tipli səhmdar cəmiyyəti (QSC) arasındakı fərqləri göstərən aşağıdakı fikirlərdən hansı doğru deyil?
- [ ] ASC buraxdığı səhmlərin sərbəst satışını həyata keçirə bilər; QSC isə buraxdığı səhmləri şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz
- [ ] QSC-nin iştirakçılarının sayı qanunla məhdudlaşdırılıb; ASC-nin iştirakçılarının sayına isə məhdudiyyət yoxdur
- [ ] ASC buraxdığı səhmlərə açıq abunə yazılışını həyata keçirə bilər; QSC isə buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz
- [x] ASC illik hesabatını və mühasibat balansını hamının tanış olması üçün hər il dərc etməyə borcludur, QSC üçün belə bir tələb yoxdur
- [ ] ASC-nin iştirakçıları öz səhmlərini istədiyi zaman, digər səhmdarların razılığı olmadan, özgəninkiləşdirə bilir; QSC-nin iştirakçıları isə öz səhmlərini digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bilməz

13 Təsərrüfat cəmiyyətlərində mülkiyyət və idarəetmənin ayrılması nə deməkdir?
- [ ] səhmdarlar hər zaman firmanın mənfəətinin maksimumlaşdırılmasında maraqlıdırlar
- [ ] belə şirkətlərdə mənfəətin bölünməsi və istafadəsi ilə bağlı qərarları kənar şəxslər verir
- [ ] menecerlər səhmdarların fəaliyyətinə nəzarəti təmin etmək mexanizmləri tətbiq etmək zərurəti ilə üzləşirlər
- [ ] belə şirkətlərdə firmanın sahibləri ilə işinin nəticəsi bu mənfəəti yaratmaq olan işçilər eyni deyillər
- [x] belə şirkətlərdə mənfəətin son alıcıları (yəni firmanın sahibləri) ilə nəticəsi bu mənfəətin həcmini müəyyənləşdirəcək qərarları qəbul edən menecerlər eyni şəxslər deyillər

14 Aşağıdakılardan biri kommersiya hüquqi şəxslərinin növlərini bir-birindən fərqləndirən əlamətlər sırasına aid deyil. Bu əlamət hansıdır?
- [x] Fəaliyyət növü
- [ ] Son nəticələrin mənimsənilməsi (bölünməsi)
- [ ] Əmlakda iştirak
- [ ] Riskin bölünməsi (əmlak məsuliyyətin dərəcəsi)
- [ ] İdarəetmədə iştirak

15 Ortqalıq və cəmiyyətlərin təşkilini fərqləndirən əsas əlamət hansıdır?
- [ ] firmanın yaradılmasında iştirak edənlər arasında təsis müqaviləsinin olması
- [ ] təsisçilərdən (iştirakçılardan) ən azı birinin məhdud məsuliyyətli iştirakçı olması
- [ ] firmanın mənfəətinin bölünməsi şərtləri
- [ ] firmanın uçot və hesabat sisteminin qurulması
- [x] ortaqlıqda təsisçilərdən (iştirakçılardan) ən azı birinin tam məsuliyyətli içtirakçı olması

16 Sahibkarın tam əmlak məsuliyyəti daşıması nə deməkdir?
- [ ] bu halda sahibkar özünün bütün əmlakını satıb firmanın öhdəliklərini yerinə yetirməlidir
- [ ] bu halda firmanı birgə quran iştirakçılardan hər hansı biri öz öhdəliyini yerinə yetirə bilmədikdə həmin məsuliyyət digər iştirakçıların üzərinə keçir
- [x] bu halda sahibkar öhdəliklərinə görə həm sahibi olduğu firmanın əmlakı (firmadakı payı), həm də özünün malik olduğu bütün digər əmlakı ilə məsuliyyət daşıyır
- [ ] bu halda sahibkar öhdəliklərinə görə yalnız firmanın əmlakı ilə (firmada ona məxsus payla) cavabdehlik daşıyır
- [ ] bu halda sahibkar öhdəliklərinə görə firmadakı payı ilə yox, onun firmadan kənarda malik olduğu əmlakı ilə məsuliyyət daşıyır

17 Kommersiya hüquqi şəxslərinin növləri hansılardır?
- [x] təsərrüfat ortaqlıqları və təsərrüfat cəmiyyətləri
- [ ] məhdud məsuliyyətli cəmiyyət və əlavə məsuliyyətli cəmiyyət
- [ ] tam ortaqlıq və kommandit ortaqlıq
- [ ] təsərrüfat ortaqlıqları və kommandit ortaqlıqlar
- [ ] açıq tipli səhmdar cəmiyyəti və qapalı tipli səhmdar cəmiyyəti

18 Firmanın yaradılmasında tam məsuliyyətlə iştirak edən iştirakçı necə adlanır?
- [ ] mayaqoyan (payçı)
- [ ] səhmdar
- [x] ortaq (şərik)
- [ ] agent
- [ ] kommandit

19 Biznes riski nədir?
- [ ] məqsədi cəmiyyətin ehtiyac duyduğu mal və xidmətləri istehsal edib təqdim etmək (satmaq) olan iqtisadi fəaliyyətdir
- [x] işə cəlb edilən resursların (mayanın) batması və zərərə düşmək ehtimalıdır
- [ ] sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı ortaya çıxan hesabatdır
- [ ] hər-hansı bir ideyanın reallaşdırılmasına cəhd etmək, bu istiqamətdə real addımlar atmaqdır
- [ ] cəmiyyətin ehtiyac duyduğu mal və xidmətləri istehsal edib təqdim etməkdir

20 Firmanın şaquli ölçülərinin böyüməsi (inteqrasiyası) hansı həddədək davam edə bilər?
- [ ] firmanın üfüqi sərhədləri ilə şaquli sərhədləri eyniləşənədək
- [ ] istehsalın son həddi gəlirləri son həddi xərclərinə bərabər olanadək
- [ ] firma daxilində növbəti əlavə bir transaksiyanın təşkili xərci oxşar transaksiyanın bazar qaydasında həyata keçirilməsi xərcindən yüksək olanadək
- [x] firma daxilində növbəti əlavə bir transaksiyanın təşkili xərci oxşar transaksiyanın bazar qaydasında həyata keçirilməsi xərcinə bərabər olanadək
- [ ] firma daxilində növbəti əlavə bir transaksiyanın təşkili xərci oxşar transaksiyanın bazar qaydasında həyata keçirilməsi xərcindən çox aşağı olanadək

21 Minimal səmərəli ölçü (MES – minimum efficient scale) dedikdə nə başa düşülür?
- [x] firmanın uzunmüddətli orta istehsal xərclərini minimuma endirə biləcək ən aşağı istehsal həcmi
- [ ] firmanın qısamüddətli orta istehsal xərclərini minimuma endirə biləcək ən aşağı istehsal həcmi
- [ ] firmanın uzunmüddətli iqtisadi xərclərini minimuma endirə biləcək ən aşağı istehsal həcmi
- [ ] firmanın qısamüddətli orta istehsal xərclərini minimuma endirə biləcək ən yüksək istehsal həcmi
- [ ] firmanın uzunmüddətli orta istehsal xərclərini minimuma endirə biləcək ən yüksək istehsal həcmi

22 İstehsalın miqyas effekti nəyi əks etdirir?
- [x] istifadə olunan resursların miqdarının dəyişilməsi ilə məhsul buraxılışı həcminin dəyişilməsi arasındakı nisbəti (münasibəti)
- [ ] istifadə olunan istehsal amillərindən birinin miqdarının dəyişilməsi ilə məhsul istehsalı həcminin dəyişilməsi arasındakı nisbəti (münasibəti)
- [ ] məhsul buraxılışının artması ilə məhsul satışının artması arasında olan münasibəti
- [ ] qısamüddətli dövrdə istehsalın dəyişən amilinin hər əlavə vahidinin tətbiqindən alınan son həddi (marjinal) məhsulun azalmasını
- [ ] məhsul buraxılışı miqdarının artması ilə firmanın gəlirlərinin dəyişilməsi arasındakı nisbəti

23 Aşağıdakılardan hansı opportunizmin izlənilməsi və qarşısının alınması xərclərinə aid deyil?
- [ ] iş və vəzifə təlimatlarının hazırlanması
- [ ] dispetçer xidməti, müşahidə və izləmə (nəzarət) xərcləri
- [ ] iş vaxtının xronometrajının aparılması
- [ ] zaminlik və zəmanət sitemi
- [x] müqavilə şərtlərinə əməl edilməməsi üzündən pozulan hüquqların bərpası işləri

24 Qaytarılmayan xərclər nədir?
- [ ] xammal və materialların alınması və əmək haqqı üçün artıq firmanın ödədiyi xərclərdir
- [ ] alternativ istifadəsi mümkün olan aktivlərə qoyulan investisiyalardır
- [x] alternativ istifadəsi mümkün olmayan aktivlərə qoyulan investisiyalardır
- [ ] spesifik aktivlərin əldə edilməsinə qoyulan investisilardır
- [ ] firmanın (biznesin) qurulmasına çəkilən xərclərdir

25 İctimai seçim nəzəriyyəsinin yanaşmasına əsasən transaksiya xərclərinin təbiəti bununla bağlıdır:
- [ ] istehsal və marketinq xərcləri ilə
- [ ] müxtəlif sazişlərin hər zaman yanaşı (əlaqəli) baş verməsi ilə
- [x] maraqların uzlaşdırılması xərcləri ilə
- [ ] informasiya xərcləri ilə

- rəqabət aparılması xərcləri ilə

26 R.Kouz (Kouz teoremi) xarici (yan) təsirlər probleminin həlli üçün bunu təklif edir:
- resurslaırn əldə edilməsi xərclərinin azaldılmasını
- resurslar üzərində mülkiyyət hüququnun dəqiq təyin edilməsini
- istehsal xərclərinin azaldılmasını
- təshihedici vergilərin və subsidiyalaşdırmanın tətbiq edilməsini
- resurslar üzərində mülkiyyət hüququnun dəqiq təyin edilməməsini

27 Kouzun fikrincə, məhz bu, istehsal olunan məhsulun dəyərinin artmasına gətirib çıxarır:
- mülkiyyət hüquqlarının yenidən bölünməsinin firma tərəfindən baş verməsi
- resurslar üzərində mülkiyyət hüquqlarının olmaması
- mülkiyyət hüquqlarının yenidən bölünməsinin bazar mexanizmi əsasında baş verməsi
- mülkiyyət hüquqlaırnın yenidən bölünməsinin dövlət tərəfindən həyata keçirilməsi
- məhsula olan tələblə onun təklifi arasında olan kənarlaşma dərəcəsi

28 Kouz teoremi standart (neoklassik) iqtisadi nəzəriyyədə olan hansı sistemi dağıtmış oldu?
- Piqu sistemini
- Rikardo sistemini
- Marşal sistemini
- Keyns sistemini
- "Görünməz əl" sistemini

29 Leontyev istehsal funksiyası hansı hal üçündür?
- istehsal amillərinin bir-birini tamamlamadığı, lakin tamamilə qarşılıqlı əvəzlənmənin mümkün olduğu hal üçün
- istehsal amillərinin həm bir-birini tamamlamadığı, həm də qarşılıqlı əvəzlənmənin mümkün olmadığı hal üçün
- istehsal amillərinin həm bir-birini tamamladığı, həm də tamamilə qarşılıqlı əvəzlənmənin mümkün olduğu hal üçün
- istehsal amillərinin həm bir-birini tamamlamamağına rəğmən qarşılıqlı əvəzlənmənin tamamilə mümkün olduğu hal üçün
- istehsal amillərinin bir-birini tamamladığı, lakin tamamilə qarşılıqlı əvəzlənmənin mümkün olmadığı hal üçün

30 İstehsal funksiyası nəyi təsvir edir?
- istehsal xərcləri ilə iqtisadi resursların sərfi miqdarı arasındakı əlaqəni
- istehlak xərcləri ilə məhsul buraxılışının miqdarı arasındakı əlaqəni
- istehsal xərcləri ilə transaksiya xərcləri arasındakı əlaqəni
- istehsal xərcləri ilə məhsulun satış qiyməti arasındakı əlaqəni
- istehsal xərcləri ilə məhsul buraxılışının miqdarı arasındakı əlaqəni

31 Fərz edək ki, konkret sahə bazarı 5 firma arasında bərabər bölünüb, yəni hər biri 20%-lik bazar payına malikdir. Belə bazar üçün Herfindal-Hirşman indeksi nəyə bərabərdir?
- 100
- 1600
- 10000
- 80
- 2000

32 Fərz edək ki, şəhərin avtomobil bazarında il ərzində 1000 avtomobil satılıb. Bunun 300-nü A firması, 250-ni B firması, 250-sini C firması və qalan 200-nü D firması satıb. Bu halda aşağıdakı fikirlərdən hansı yanlışdır?
- B firmasının bazar payı A firmasının payından kiçik, D firmasının payından böyükdur
- A firması ən yüksək bazar payına malikdir
- D firmasının bazar payı A firmasından çox, B firmasından azdır
- B və C firmalarının bazar payı bərabərdir
- D firması ən kiçik bazar payına malikdir

33 Aşağıdakılardan hansıları bazara giriş maneələrini yaradan zəminlər hesab edilir? 1) miqyas artımından qənaətin səviyyəsi; 2) əvəzedici məhsulların mövcudluğu; 3) kapitala (investisiyaya) olan tələbat; 4) texnologiyalara əlçatanlıq səviyyəsi; 5) bazarda tədarükçülərin təmərküzləşmə səviyyəsi; 6) alıcıların gəlirləri və ödəmə qabiliyyəti
- 2, 4, 5 və 6
- 1, 3, və 4
- 1, 2, 5 və 6
- 3, 4 və 5
- 2, 5 və 6

34 Oiymət üzrə tələbin çarpaz elastikliyi göstərir ki:
- hər-hansı bir mala olan tələb həmin malın özünün qiyməti ilə yanaşı həm də onun istehsalına cəlb edilən resursların qiymətindən asılı olaraq dəyişilə bilər

- hər-hansı bir malın təklifi həmin malın istehsal texnologiyasından və xərclərindən asılı olaraq dəyişilə bilər
- hər-hansı bir mala olan tələb həmin malın istehsal xərcləri ilə yanaşı həm də başqa malların xərclərindən asılı olaraq dəyişilə bilər
- hər-hansı bir mala olan tələb yalnız onun öz qiymətindən asılı olaraq dəyişir
- hər-hansı bir mala olan tələb həmin malın özünün qiyməti ilə yanaşı həm də başqa malların qiymətindən asılı olaraq dəyişilə bilər

35 Lerner indeksi belə hesablanır:
- L = (P – MC)/MC
- L = (MC – P)/MC
- L = (P +MC)/ MC
- L = (MC – P)/P
- L = (P – MC)/P

36 Sahə bazarının əmtəə sərhədləri nəyi əks etdirir?
- sahədə istehsal olunan malların çeşid müxtəlifliyini
- eyni resurslardan istifadə edilməklə istehsal oluna bilən əmtəələrin siyahısını
- istehlakda malların bir-birini əvəz etmək qabiliyyətini
- istehsalda resurslarn bir-birini tamamlamaq qabiliyyətini
- istehsalda malların bir-birini əvəz etmək qabiliyyətini

37 Sahə bazarı və sahənin (sənaye sahəsinin) müqayisə olunduğu aşağıdakı fikirlərdən hansı doğrudur?
- sahə bazarı firma aspektindən, sahə (sənaye sahəsi) isə istehlakçı baxımından öyrənilir
- sahə bazarı istehsal baxımından, sahə (sənaye sahəsi) isə tələb və təklif baxımından öyrənilir
- sahə bazarı tələb və təklif baxımından, sahə (sənaye sahəsi) isə istehsal baxımından öyrənilir
- sahə bazarı institutsional baxımdan, sahə (sənaye sahəsi) isə makroiqtisadi baxımdan öyrənilir
- sahə bazarı makroiqtisadi aspektdən, sahə (sənaye sahəsi) isə mikroiqtisadi baxımdan öyrənilir

38 “Quruluş-davranış-nəticəlilik” paradiqmasının ilkin versiyasında aşağıdakı elementlərdən hansı olmayıb?
- bazarın quruluşu
- dövlət siyasəti
- bazarın nəticəliliyi
- firmanın davranışı

39 Sahə bazarının miqyası bununla müəyyən edilir?
- müvafiq mal və xidmətlər üzrə tələb və təklifin tarazlıq miqdarı ilə
- müvafiq mal və xidmətlərin istehsalının miqdarı ilə
- müvafiq mal və xidmətlər üzrə təklifin miqdarı ilə
- müvafiq mal və xidmətlər üzrə tarazlıq qiyməti ilə
- müvafiq mal və xidmətlər üzrə tələbin miqdarı ilə

40 Bunlardan hansı sahə bazarı deyil?
- çörək məmulatları bazarı
- ərzaq bazarı
- sərinləşdirici içkilər
- geyim malları bazarı
- minik avtomobilləri bazarı